

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 85 (21.495)

11 may 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü günüdür. Artıq 13-cü ildir ki, qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.

Hər il xalqımızın xilaskar oğlunun doğum günündə olduğu kimi, bu il mayın 10-da da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana üz tutur, ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edir, ruhuna dua oxuyurdular.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları xalqımızın xilaskar oğlunun doğum günündə onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Burada fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, onun xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.



* * *

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Zığ-Heydər Əliyev Beynəlxalq Aeroportu magistral avtomobil yolunun 29-30-cu kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə kampaniyasında iştirak ediblər.

## Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü qeyd olunmuşdur

Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xalqımızın böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmişdir.

Nazirlik, komitə, baş idarələrin və müəssisələrin rəhbərləri, hərbi hissələrin komandirləri, elm, təhsil müəssisələrinin və ictimaiyyətin nümayəndələri də abidə önünə tər güllər düzmüşlər.



Ümummilli lider Heydər Əliyevin mənalı ömrü xalqa xidmət, Vətənə məhəbbət nümunəsidir. ***“Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır”***, – deyən xalqımızın böyük oğlu Azərbaycan dövlətçiliyinin siyasi-ideoloji əsaslarını və milli inkişaf konsepsiyasını yaratmışdır. Bu konsepsiya əsasında xalqımız öz həqiqi dövlət müstəqilliyinə qovuşmuşdur.





1969-1982-ci illərdə ulu öndərin rəhbərliyi ilə həyata keçirilən islahatlar Azərbaycanı aqrar respublikadan sənaye respublikasına çevirmiş, ölkədə genişmiqyaslı quruculuq işləri aparılmış, iri sənaye müəssisələri fəaliyyətə başlamış, tarixi-mədəni irsimizə, milli dəyərlərimizə qayğı göstərilmiş, milli kadrların hazırlanması prosesinin əsası qoyulmuşdur. Ümummilli liderimizin hələ SSRİ-nin mövcud olduğu dövrdə cəsarətlə və uzaqgörənliklə həyata keçirdiyi bu tədbirlər Azərbaycanın gələcək müstəqilliyinin və xalqımızın firavan həyatının möhkəm təməlini yaratmışdır.

Ötən əsrin 90-cı illərində xalqımızın böyük oğlunun siyasi arenadan uzaqlaşması ilə Azərbaycanın ağır və çətinliklərlə dolu dövrü başladı, torpaqlarımız işğal edildi, xalqımıza qarşı Qanlı Yanvar faciəsi, Xocalı soyqırımı törədildi. Xalqın əsl xilaskara ehtiyacı olduğu belə bir dövrdə bütün məsuliyyəti çiyinlərinə götürən dahi rəhbər Naxçıvandan xilaskarlıq missiyasına başladı, Azərbaycanın qurtuluş və inkişaf tarixini yazdı. Dahi şəxsiyyət muxtar respublikanın rəhbəri olduğu 1991-1993-cü illərdə xalqımız üçün həyati əhəmiyyət daşıyan mühüm tarixi qərarlar qəbul etmişdir.

Ümummilli liderimizin 1993-cü il iyunun 15-də respublikamızda ali hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın dövlətçilik tarixinin şanlı səhifəsini təşkil edir. Tarixi zərurətdən yaranan bu Qayıdışla xalqımız müstəqil dövlətçiliyini itirmək təhlükəsindən xilas oldu. Ulu öndərin irəli sürdüyü dövlətçilik konsepsiyası mahiyyət etibarı ilə Azərbaycanın yeni və davamlı inkişaf modeli kimi özünü doğrultdu, ölkə həyatının bütün sahələrində dönüş yarandı, hərtərəfli sosial-iqtisadi inkişafın əsası qoyuldu. Azərbaycanda güclü ordu formalaşdı.

Görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi inkişaf xətti hazırda ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan güclü iqtisadiyyatı və beynəlxalq nüfuzu ilə artıq dünya dövlətləri sırasında layiqli yerini tutmuşdur. Ümummilli liderin ideyaları Naxçıvan Muxtar Respublikasını da hərtərəfli inkişafa qovuşdurmuşdur. Dahi şəxsiyyətin xalqımızın tərəqqisi naminə irəli sürdüyü inkişaf konsepsiyası, irimiqyaslı proqramlar muxtar respublikada uğurla həyata keçirilir.

Bütün bunlar bir daha göstərir ki, Heydər Əliyev yolunun alternativi yoxdur. Heydər Əliyev siyasi tariximizə qurucu və xilaskar kimi daxil olmuş görkəmli dövlət xadimi olmaqla yanaşı, həm də bütün titul və adlardan ən yüksəyini – öz sağlığında xalqın ümummilli lideri adını qazanmış Dahi Şəxsiyyətdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli Heydər Əliyev ideyalarından, onun böyük dövlətçilik məktəbindən ölkəmizin inkişafı və rifahı naminə faydalanacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və tədbir iştirakçıları Heydər Əliyev Muzeyinə gələrək Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin həyat yolunu, çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxmışlar.

Muzeylə tanışlıqdan sonra Ali Məclisin Sədri ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə tədbir iştirakçılarını təbrik edərək demişdir: Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan dövlətinin memarı, qurucusu, xilaskarı və əbədiyaşar lideridir. O insanlar tarixdə əbədi yaşayır ki, onun həyat və fəaliyyəti xalqına və dövlətinə həsr olunsun. Ulu öndər Heydər Əliyev belə görkəmli şəxsiyyətlərdəndir. Ümummilli liderin ideyaları bu gün də yaşayır. Ölkə Prezidenti cənab İlham Əliyev dahi şəxsiyyətin yolunu, ideyalarını davam etdirərək Azərbaycanı qüdrətli dövlətə çevirmişdir.

Mayın 10-da Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində də ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibəti ilə tədbirlər keçirilmiş, dahi şəxsiyyətin adını daşıyan mədəniyyət və istirahət parklarında xalq gəzintiləri təşkil olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş “Naxçıvan-2016” Beynəlxalq Şahmat Festivalının açılış mərasimi keçirilmişdir





Mayın 10-da Naxçıvan Dövlət Musiqili Dram Teatrında ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Naxçıvan-2016” Beynəlxalq Şahmat Festivalının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərində Azərbaycan xalqının ümummilli lideri



Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Naxçıvan-2016” Beynəlxalq Şahmat Festivalına start verildiyini bildirmiş, bu münasibətlə şahmat festivalının bütün iştirakçılarını təbrik etmiş, şahmatçıları və qonaqları salamlayaraq demişdir: Beynəlxalq şahmat festivalının açılış tədbirinin böyük dövlət xadimi, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin anadan olduğu gündə keçirilməsi bu yarışın məna və əhəmiyyətini daha da artırır. Çünki Azərbaycanda şahmatın idman növü kimi inkişafı və kütləviləşməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. ***“Şahmat insanı saflaşdıran və kamilləşdirən idman növüdür”***, – deyən Azərbaycan xalqının ümummilli lideri ölkəmizə rəhbərliyinin hər iki dövründə şahmatın inkişafını daim diqqətdə saxlamış, gənclərin şahmatla məşğul olması üçün hərtərəfli şərait yaratmışdır. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət idman və gənclər siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilir.

Qeyd olunmuşdur ki, intellektual idman növü kimi şahmata Naxçıvanda daha böyük maraq vardır. Artıq muxtar respublikanın paytaxtı Naxçıvan şəhəri beynəlxalq şahmat yarışlarının keçirildiyi mərkəzə çevrilmişdir. Bu gün muxtar respublikadakı şahmat məktəblərində gənclər şahmatın sirlərini öyrənirlər. Ümumtəhsil məktəblərində isə şahmat fənni tədris olunur, peşəkar şahmatçılar hazırlanır. Görülən işlərin nəticəsidir ki, Naxçıvanda FİDE ustası, qrossmeyster, beynəlxalq hakim və beynəlxalq usta dərəcələri alan şahmatçılar yetişmişdir.

Ali Məclisin Sədri demişdir: Müdriklər şahmatı formaca oyun, məzmunca incəsənət, bu oyuna yiyələnmə çətinliyinə görə isə elm adlandırmışlar. Bütün bunlarla yanaşı, şahmat, şübhəsiz ki, birlik, dostluq və sülh oyunudur. İnanırıq ki, builki festival da dünyanın müxtəlif ölkələrindən gələn şahmatçılar arasında dostluq əlaqələrinin yaranmasına, yeni şahmatçılar nəslinin yetişməsinə öz töhfəsini verəcək və sağlam mübarizə şəraitində keçəcəkdir.




Ali Məclisin Sədri “Naxçıvan-2016” Beynəlxalq Şahmat Festivalının iştirakçılarına qələbə arzulamış, təşkilatçılara təşəkkürünü bildirmiş və festivalı açıq elan etmişdir.

Azərbaycan Respublikası gənclər və idman naziri Azad Rəhimov çıxış edərək demişdir ki, bu gün ölkəmizdə digər idman növləri ilə yanaşı, şahmatın inkişafına da qayğı göstərilir. Artıq Azərbaycan dünyada həm də şahmatın inkişaf etdiyi bir ölkə kimi tanınır. Hər il ölkəmizdə beynəlxalq şahmat yarışları keçirilir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Naxçıvan-2016” Beynəlxalq Şahmat Festivalı da bu mənada mühüm əhəmiyyət daşıyır.

Tədbirdə çıxış edən beynəlxalq dərəcəli hakim, şahmat festivalının baş hakimi Faiq Həsənov muxtar respublikada şahmatın inkişafı sahəsində həyata keçirilən tədbirlərdən danışmışdır.

Sonra festivalın püşkü atılmışdır.

“Naxçıvan-2016” Beynəlxalq Şahmat Festivalında 350-dən artıq şahmatçı iştirak edir. Festival üç yarımqrupda keçiriləcəkdir. Festivalda dünya və Avropa çempionu olmuş şahmatçılar, beynəlxalq qrossmeysterlər, beynəlxalq şahmat və FİDE ustaları iştirak edir.

Tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının kollektivi konsert proqramı ilə çıxış etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İsveçrə Konfederasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Filip Ştalderlə görüşmüşdür.

Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İsveçrə Konfederasiyasının ölkəmizdəki səfirliyi, eləcə də İsveçrə Əməkdaşlıq Ofisi və Beynəlxalq Miqrasiya Təşkilatı arasındakı əlaqələrin bir çox sahələri əhatə etdiyini diqqətə çatdırmışdır. Kəhrizlərin bərpası layihəsini faydalı əməkdaşlığın göstəricisi kimi dəyərləndirən Ali Məclisin Sədri bunun nəticəsi olaraq 2011-ci ildə İsveçrə Konfederasiyasının o zamankı Prezidenti xanım Mişelin Kalmi-Reyin Naxçıvana səfər etdiyini və bir sıra görüşlər keçirildiyini xatırlatmışdır.

Ali Məclisin Sədri əməkdaşlıq zamanı qazanılan təcrübənin hazırda muxtar respublikada tətbiq olunduğunu bildirmiş, səfirin ölkəmizdəki fəaliyyətinin ikitərəfli münasibətlərin genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etmişdir.

Muxtar respublikaya ilk dəfə səfər etdiyini və Naxçıvanda olmaqdan məmnunluğunu bildirən səfir Filip Ştalder göstərilən xoş münasibətə görə minnətdarlıq etmişdir. Qarşılıqlı əlaqələrdən danışan səfir diplomatik fəaliyyəti dövründə münasibətlərin daha da genişləndirilməsinə çalışacağını qeyd etmişdir.

İsveçrə Əməkdaşlıq Ofisinin Cənubi Qafqaz üzrə Regional direktor müavini xanım Simon Hayberli görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda faşizm üzərində qələbənin 71-ci ildönümü qeyd olunmuşdur

Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Xatirə kompleksinə gələrək Böyük Vətən müharibəsi veteranları ilə görüşmüş, onları alman faşizmi üzərində qələbənin 71-ci ildönümü münasibətilə təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri kompleksdəki abidənin önünə tər gül dəstəsi qoymuş, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsini ehtiramla yad etmişdir.

Mərasim iştirakçıları və ictimaiyyətin nümayəndələri də abidə önünə gül dəstələri düzmüşlər.

1941-1945-ci illər müharibəsində Azərbaycan xalqı böyük qəhrəmanlıq və igidlik nümunəsi göstərmişdir. Soydaşlarımız müharibə illərində arxa cəbhədə də böyük şücaət və əzmkarlıq göstərmiş, ordunun ehtiyacını ödəmək üçün bütün qüvvələri səfərbərliyə almışlar. Qələbənin qazanılmasında Azərbaycan nefti də əhəmiyyətli rol oynamışdır.

Naxçıvanlılar da müharibədə böyük şücaətlər göstərmişlər. 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınmış, göstərdikləri igidliklərə görə 3 həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüş, bir nəfər “Şöhrət” ordeninin hər üç dərəcəsi, müharibə iştirakçılarından 600-ə yaxını orden və medallarla təltif olunmuşdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyev qələbənin qazanılmasında xidməti olan insanlara daim diqqət göstərmiş, 1941-1945-ci illər müharibə veteranlarını ***“Azərbaycan xalqının qızıl fondu”*** adlandırmışdır. Görkəmli dövlət xadiminin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 May respublikamızda Qələbə Günü kimi rəsmiləşdirilmiş, dövlət bayramları sırasına daxil edilmiş, müharibə veteranlarının sosial müdafiəsi gücləndirilmişdir. Ümummilli lider Heydər Əliyev deyirdi: ***“Azərbaycan xalqı İkinci Dünya müharibəsində böyük rəşadət, qəhrəmanlıq nümayiş etdirmiş, həm cəbhədə, həm arxada vuruşaraq, çalışaraq qələbənin əldə olunmasında öz xidmətlərini göstərmişdir.***

*Ardı 3-cü səhifədə*









*Bu qələbə bəşəriyyət tarixində bütün qara qüvvələrə, faşizmə qarşı mütərəqqi qüvvələrin qələbəsi idi”.*

Bu gün ulu öndərimizin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir. Ölkə başçısının rəhbərliyi ilə müharibə veteranlarının sosial müdafiəsi ildən-ilə gücləndirilir. “1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında”, “1941-1945-ci illər Böyük Vətən müharibəsində iştirak etmiş bəzi kateqoriyalardan olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında”, “1941-1945-ci illər Böyük Vətən müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi avtonəqliyyatla təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında”, “1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin sərəncamları bu diqqət və qayğının parlaq ifadəsidir.

Həmin gün Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində də faşizm üzərində qələbənin 71-ci ildönümü münasibəti ilə tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda dövlət müəssisə və təşkilatlarının rəhbərləri və sahibkarlarla görüş olmuşdur







Mayın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ərzaq məhsulları ilə mərkəzləşdirilmiş qaydada təmin olunacaq dövlət müəssisə və təşkilatlarının rəhbərləri və sahibkarlarla görüşmüşdür.

Naxçıvan Biznes Mərkəzində keçirilən tədbirdə çıxış edən muxtar respublikanın iqtisadiyyat naziri Famil Seyidov demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı ilə “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası”nın təsdiq olunması yerli istehsal müəssisələrinin fəaliyyətinin stimullaşdırılmasına, müəssisə və təşkilatların vaxtında ərzaq məhsulları ilə keyfiyyətli və davamlı təchizatına imkan verir. Hazırda muxtar respublikada 441 yeni sənaye müəssisəsi fəaliyyət göstərir. Yerli resurslar nəzərə alınmaqla təbii sərvətlərdən səmərəli istifadə edilməsi, kəndlərdə dayanıqlı istehsal sahələrinin yaradılması və məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədilə ötən müddət ərzində muxtar respublikanın rayon və kəndlərində 690 kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələri yaradılmışdır. Muxtar respublikada fəaliyyəti bərpa edilmiş və ya yeni qurulmuş müəssisələrdə istehsal olunan məhsulların növü 361-ə, çeşidi 1116-ya çatmış, 343 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bugünkü görüşün keçirilməsində əsas məqsəd dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini təmin etməkdən, daxili bazarın qorunmasından və keyfiyyətə nəzarəti gücləndirməkdən ibarətdir. Keyfiyyət amilinə diqqət yetirmək, rəqabətədavamlı məhsul istehsal etmək və daxili bazarın tələbatını ödəmək məhsul istehsalında başlıca şərtdir. Muxtar respublikada həyata keçirilən tədbirlərin nəticəsidir ki, hazırda daxili bazarın bir çox məhsullara olan tələbatı yerli istehsal hesabına ödənilir, bu məhsulların keyfiyyəti və qiyməti istehlakçılar tərəfindən razılıqla qarşılanır.

Ali Məclisin Sədri bu sahədə qazanılan uğurlu nəticələrə görə aid təşkilatlara və sahibkarlara təşəkkürünü bildirmişdir.

Qeyd olunmuşdur ki, bu gün ərzaq təhlükəsizliyinin təmin olunması dünya ölkələrinin qarşısında duran əsas vəzifələrdəndir. Çünki ərzaq təhlükəsizliyinin təmin olunması əhalinin sağlam qida məhsulları ilə təminatına, idxaldan asılılığın aradan qaldırılmasına, yeni iş yerlərinin açılmasına və insanların rahat yaşayışına xidmət edir. Bu gün ölkəmizdə qəbul olunan dövlət proqramları, həyata keçirilən tədbirlər də ərzaq təhlükəsizliyinin təmin olunmasına hesablanmışdır. Hələ ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan Sovetlər İttifaqının aqrar əlavəsindən inkişaf etmiş, dotasiyasız yaşayan respublikaya çevrilmişdir. Bu inkişafa ona görə nail olundu ki, ümummilli liderimiz, ilk növbədə, Azərbaycanda kənd təsərrüfatını inkişaf etdirdi, ərzaq məhsullarının istehsalı artırıldı. Kənd təsərrüfatının inkişafı isə ölkəmizdə sənayenin inkişafına səbəb oldu, mühüm iqtisadi layihələr həyata keçirildi. Bu gün müstəqil ölkəmizdə də ərzaq məhsullarının istehsalı sahəsində kompleks tədbirlər görülür. Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalçıları güzəştli şərtlərlə toxum,

*Ardı 4-cü səhifədə*

lizinq yolu ilə gübrə, texnika, damazlıq malqara almaq imkanlarına malikdirlər. Bütün bunlar isə ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikası blokada şəraitində yaşayır. Ona görə də muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması qarşıda duran əsas məsələlərdəndir. Bu istiqamətdə ardıcıl tədbirlər görülür, sahibkarlara güzəştli kreditlər verilir, yerli istehsal dəstəklənir, daxili bazar qorunur. "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması da bu sahədə görülən işlərin davamıdır. Müəssisə daxili bazarın tələbatının yerli məhsullarla ödənilməsi və onların ixrac potensialının artırılması sahəsində fəaliyyət göstərir. Lakin aparılan təhlillər nəticəsində aydın olur ki, dövlət müəssisə və təşkilatları tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasında pərakəndəlik vardır.

Ali Məclisin Sədri demişdir: Dövlət büdcəsindən maliyyələşən təşkilatlar yalnız yerli istehsal məhsullarını almalı, daxili bazarda yerli məhsullara daha çox üstünlük verilməlidir. Bazarın tələbatının yerli istehsal hesabına ödənilməsində sahibkarların da üzərinə mühüm vəzifələr düşür. Sahibkarlar daxili bazarın tələbatını nəzərə almalı, keyfiyyətli məhsul istehsal etməlidirlər. İqtisadiyyat Nazirliyi yerli məhsulların çeşidinin artırılmasını diqqətdə saxlamalı, biznes planlar hazırlamalı, yeni müəssisələr yaradılmalıdır. Nazirlik aid təşkilatlarla birlikdə ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada satın alınması qaydalarına ciddi əməl etməli, bununla bağlı qəbul olunmuş normativ aktlar izah olunmalıdır.

Sonra Ali Məclisin Sədri dövlət müəssisə və təşkilatlarının təchizatı üçün nəzərdə tutulan ərzaq və qeyri-ərzaq məhsullarına baxmış, müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü muxtar respublikamızda bayram əhval-ruhiyyəsi ilə qeyd edilib

## *Şərur rayonu*



Muxtar respublikamızın hər yerində olduğu kimi, Şərur rayonunda da xalqımızın ümummilli lideri, bütün zamanların ən böyük Azərbaycanlısı Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü geniş şəkildə qeyd olunub. Ümummilli liderin respublikamızın digər bölgələrində olduğu kimi, Şərurda da silinməz izləri vardır. İstər ötən əsrin 70-80-ci illərində, istərsə də müstəqillik əldə etdikdən sonra Şərur rayonunda inşa olunmuş onlarla sənaye müəssisəsi, sosial-mədəni obyekt, suvarma qurğuları, çəkilən yollar, salınan körpülər məhz ulu öndərin yadigarlarıdır. Görkəmli dövlət xadiminin bilavasitə rəhbərliyi və daimi nəzarəti ilə yaradılan Arpaçay Su Anbarı on minlərlə hektar əkinəyararlı sahənin suvarılmasına imkan verib. Rayon sakinləri ümummilli liderimizin rəhbərliyi ilə həyata keçirilən tədbirləri bu gün minnətdarlıq hissi ilə xatırlayırlar. Ulu öndər bu bölgəyə yüksək qiymət verərək deyib: ***"Mən arzu edirəm ki, siz gələcəkdə öz işlərinizi daha da yaxşılaşdırasınız. Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar, sizlər varsınız. Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz".***

Rayon sakinləri ulu öndərin bu tövsiyələrini layiqincə yerinə yetirməyə çalışırlar. Mayın 10-da rayon ictimaiyyətinin nümayəndələri dahi rəhbərin İcra Hakimiyyətinin qarşısındakı əzəmətli abidəsi önünə gəlib, ümummilli liderə, onun əbədiyaşar siyasətinə sadiq olduqlarını bir daha nümayiş etdirib, abidə önünə tər güllər düzüblər.

Həmin gün axşamüstü Şərur şəhərindəki Heydər Parkında ulu öndərin anadan olmasının ildönümü münasibətilə rayon ictimaiyyətinin gəzintisi təşkil edilib.

## *Babək rayonu*



Muxtar respublikamızın ən böyük bölgələrindən biri olan Babək rayonu ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci il oktyabrın 23-də təşkil edilib. Ölkəmizin dağ və sərhəd rayonlarının daha da möhkəmləndirilməsi siyasətinin məntiqi nəticəsi kimi həyata vəsiqə alan yeni rayona xalq qəhrəmanı Babəkin adının verilməsi ulu öndərin siyasi iradəsinin və milli-tarixi ənənələrə böyük bağlılığının göstəricisidir. Görkəmli dövlət xadiminin Azərbaycana rəhbərliyinin hər iki dövründə Babək rayonu böyük inkişaf yolu keçib. Rayonun yaşayış məntəqələri abadlaşdırılıb, yeni yollar salınıb, müxtəlif təyinatlı obyektlər tikilərək və ya əsaslı şəkildə təmir olunaraq istifadəyə verilib.

Ümummilli lider Heydər Əliyev ideyalarının uğurla davam etdirilməsi Babək rayonunun müasir simasında indi daha aydın görünür. Babəklilər də görülən işlərin bu ideyalara sadiqlikdən qaynaqlandığını dərk edirlər. Odur ki, dahi şəxsiyyətin anadan olmasının 93-cü ildönümü rayonda bayram əhval-ruhiyyəsi ilə qeyd olunub.

Mayın 10-da axşam saatlarına doğru rayon sakinlərinin, ictimaiyyət nümayəndələrinin, eləcə də müxtəlif idarə, təşkilat və qurumların kollektivlərinin rayon mərkəzindəki meydanda gəzintisi böyük öndərə olan ümumxalq sevgisini bir daha ortaya qoyub.

## *Ordubad rayonu*



Ulu öndərimizin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonunun sakinləri mayın 10-da xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin Ordubad şəhərindəki büstü önünə gələrək dahi rəhbərin əziz xatirəsini dərin ehtiramla yad ediblər, abidə önünə gül-çiçək dəstələri düzüblər.

Bu bölgəmizdə də ulu öndərə böyük sevgi və məhəbbət vardır. 1980-ci ilin may ayında görkəmli dövlət xadimi Heydər Əliyev Ordubadda olarkən bu gözəl və qədim məkanı "Azərbaycanın incisi" adlandırıb. Ondan bir neçə il əvvəl isə – 1977-ci ildə öz orta əsr plan quruluşunu qoruyub saxlayan Ordubad şəhərinin Qoruq şəhər elan edilməsi üçün göstəriş verib. Rayon ötən əsrin 90-cı illərinin əvvəllərində ermənilərin torpaq iddiaları nəticəsində ilk şəhidlərini verərkən həmin vaxt sakinlərimizlə həmrəy olmaq üçün ulu öndər Ordubadda olub. Elə buna görə də ordubadlılar heç bir zaman dahi rəhbər Heydər Əliyevin göstərdiyi diqqət və qayğını unutmurlar, bu əvəzedilməz şəxsiyyətin xatirəsini əziz tuturlar.

Ordubad bu gün tarixiliyini qorumaqla ən abad və füsunkar bir yurd yerinə çevrilib. Bütün bunlar muxtar respublikamızda dahi rəhbərimizin yoluna sədaqətin bəhrələridir.

Həmin gün axşam saatlarında Ordubad şəhərinin park və xiyabanlarında dahi rəhbər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar ümumxalq gəzintisi təşkil edilib.

## *Culfa rayonu*



***Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü Culfa rayonunda da böyük bayram əhval-ruhiyyəsi ilə qeyd olunub.***

Culfa rayonu bu gün özünün hərtərəfli inkişaf dövrünü yaşayır. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə rayonda bütün sahələrin inkişafı diqqətdə saxlanılıb. Ötən əsrin sonlarında dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanda torpaq islahatlarına ilk dəfə Culfa rayonunun kəndlərində başlanılıb, kəndli əkib-becərdiyi torpağın sahibinə çevrilib. İqtisadi, sosial, mədəni sahələrdə atılan addımlar son 20 ildə rayonun hərtərəfli inkişafına geniş imkanlar açıb. Bu yeni inkişaf mərhələsində rayonun kənd yaşayış məntəqələrinin böyük əksəriyyətində kompleks quruculuq işləri aparılıb, onlarla məktəb binası, səhiyyə ocağı, mədəniyyət obyekti tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Kənd yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzi olan Culfa şəhəri də bu quruculuq və abadlıq tədbirlərindən öz nəsibini alaraq daha da gözəlləşib.

Rayon sakinləri onlara bu xoş günləri bəxş edən ümummilli liderimizin misilsiz xidmətlərini unutmurlar. Culfalılar dahi şəxsiyyətin anadan olmasının 93-cü ildönümündə ulu öndərimizin Culfa Rayon İcra Hakimiyyəti binasının qarşısındakı büstü önünə gələrək Ona hörmət və ehtiramlarını nümayiş etdiriblər.

Mayın 10-da axşam rayon mərkəzində yerləşən mədəniyyət və istirahət parkında gəzinti olub.

## *Kəngərli rayonu*



*Dünən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü Kəngərli rayonunda da geniş qeyd edilib. Rayon sakinləri ulu öndər Heydər Əliyevin Qıvraq qəsəbəsində əzəmətlə ucalan abidəsini ziyarət ediblər.*

Ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il martın 19-da Naxçıvan Muxtar Respublikasında Kəngərli rayonunun yaradılması haqqında Azərbaycan Respublikasının Qanununu imzalaması bu bölgə sakinləri tərəfindən böyük sevinc hissləri ilə qarşılanıb. Yeni rayonun yaradılması bölgə əhalisi üçün yeni iş yerlərinin açılmasına, iqtisadiyyatın güclənməsinə, ailələrin məskunlaşmasına şərait yaradıb. Qısa müddətdə bu bölgəmiz sürətli inkişaf yolu keçərək muxtar respublikanın digər rayonlarının inkişaf səviyyəsinə çatıb. Belə ki, ötən illər ərzində burada mühüm infrastruktur layihələri həyata keçirilib, yeni istehsal sahələri yaradılıb, əhalinin sosial-iqtisadi həyatında mühüm dəyişikliklər baş verib. Rayon mərkəzi Qıvraq qəsəbəsi də daxil olmaqla, bütün kənd yaşayış məntəqələri abadlaşdırılıb. Buna görə də hər kəs Heydər Əliyev ideyalarının uğurlu nəticələrini bu gənc rayonun simasında görə və hiss edə bilir.

Mayın 10-da axşam saatlarında Qıvraq qəsəbəsindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında təşkil edilən gəzinti rayon sakinlərinin bu gözəlliklərdən zövq almasına bir daha imkan yaradıb.

## *Şahbuz rayonu*



Mayın 10-da müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü yurdumuzun hər yerində olduğu kimi, Şahbuz rayonunda da geniş qeyd olunub. Dünən ulu öndərin Şahbuz şəhərinin mərkəzində ucaldılmış büstünü ziyarət edərək tər gül dəstələri düzən rayon ictimaiyyətinin nümayəndələri görkəmli dövlət xadiminə bir daha öz dərin ehtiramlarını ifadə ediblər.

Ümummilli liderin Azərbaycana rəhbərliyi dövründə Şahbuz rayonunun da iqtisadiyyatı inkişaf etdirilib, əhalinin rifah halı yüksəldilib. Şahbuzluların bugünkü xoş güzəranı, rayonda aparılan genişmiqyaslı quruculuq tədbirləri, çəkilən yollar, abadlaşdırılan kəndlər məhz Heydər Əliyev siyasətinin bəhrələridir. Ulu öndərin xalqımız qarşısındakı misilsiz xidmətlərindən Şahbuz da daim bəhrələnib, rayon mərkəzi şəhər statusu alaraq böyüyüb genişlənib. Dahi liderin Azərbaycana rəhbərliyi dövründə rayonda Şahbuz Dövlət Təbiət Qoruğu, Heydər Əliyev Su Anbarı, çox sayda sosial obyektlər, istehsal müəssisələri yaradılıb, şahbuzlular firavan həyata qovuşublar. Bütün bunları ulu öndərin xidmətləri kimi onlar minnətdarlıqla xatırlayırlar.

Dünən axşam saatlarınadək Şahbuz şəhərindəki Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında təşkil olunmuş xalq gəzintisinə qatılan şahbuzluların çöhrəsindən də ulu öndərə məhəbbətdən doğan bu ifadələr oxunurdu.

## *Sədərək rayonu*



Bu gün hərtərəfli dövlət qayğısı ilə əhatə olunan Sədərək rayonu XX əsrin 90-cı illərinin əvvəllərində Ermənistan tərəfindən hücumlara məruz qalıb, Naxçıvanın qala qapısı sayılan bu bölgədə 1990-1993-cü illərdə ağır döyüşlər gedib. O zaman buradakı vəziyyətlə bilavasitə tanış olan ümummilli lider Heydər Əliyev bu təcavüzün və işğalın qarşısının alınması üçün öz siyasi nüfuzu, zəngin dövlətçilik və idarəetmə təcrübəsi sayəsində dünyanın diqqətini burada baş verən hadisələrə yönəldib.

Ulu öndərimizin tövsiyələrinə uyğun olaraq, bu tarixi və strateji Azərbaycan rayonuna bu gün də xüsusi diqqət yetirilir. Sədərəklilər ümummilli liderin Sədərək rayonunun yaradılması, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində xidmətlərini dərin hörmət və ehtiramla xatırlayırlar. Onlar qürur duyurlar ki, sakini olduqları rayonun mərkəzi Azərbaycan xalqının və ümumilikdə, bütün Türk dünyasının böyük oğlu Heydər Əliyevin adını daşıyır.

Dünən Sədərək rayonunda da rayon ictimaiyyətinin nümayəndələri Heydərabad qəsəbəsinin mərkəzində ucalan ulu öndərin büstünü ziyarət edib, önünə gül dəstələri düzüblər.

Həmin gün axşam rayon mərkəzi Heydərabad qəsəbəsindəki Heydər Parkında xalq gəzintisi təşkil edilib.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 367